Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Tramp: ABŞ İrana 'ağır zərbə' endirəcək

indicə




Donald Tramp

ABŞ prezidenti **Donald Tramp** Amerika qüvvələrinin İrana “ağır zərbə” vuracağını bildirib. Maliyyə naziri **Skot Bessent** isə Tehrana iqtisadi təzyiqi daha da artıracalarını deyib. Bundan əvvəl İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) İordaniyadakı iki ABŞ bazasına raket buraxmışdı.

**“Onları bərk vuracağıq. Cavab veriləcək”,** – “Fox News”un müxbiri avqustun 31-də Trampın belə dediyini xəbər verib.

SEPAH İordaniyadakı Kral Hüseyn və Əl-Əzraq bazalarına ballistik raketlər atdığını və “böyük dağıntılar” törətdiyini bildirmişdi. SEPAH-ın hücumlarla bağlı məlumatları müstəqil şəkildə təsdiqləmək mümkün olmayıb.

Trampın sözlərinə görə, ABŞ-nin hava hücumundan müdafiə sistemləri İranın zərər vura biləcək bütün raketlərini zərərsizləşdirib.

İordaniyaya hücumdan əvvəl ABŞ qüvvələri İranın Larak adasındakı raket buraxılış qurğularına zərbə endirmişdi.

“Fox News”un xəbərinə görə, Tramp onu da deyib ki. Tehrana qarşı sərt iqtisadi tədbirlər İran iqtisadiyyatına ciddi təsir göstərir.

## "Buna çox ciddi yanaşırlar"

Bessent isə bildirib ki, ABŞ ilə İran arasında son qarşılıqlı zərbələr Tehranın yeni sanksiyaların ölkə iqtisadiyyatında ciddi problemlər yaratmasına “aqressiv reaksiyasını” göstərir.

**“Onlar buna çox ciddi yanaşırlar... İqtisadiyyatlarının durumu onları şoka salıb”,** – Bessent ABŞ-nin Şimali Karolina ştatında 20 ölkənin maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin toplantısında jurnalistlərə deyib.

“Təzyiqi davam etdirəcəyik, burada çox yaxşı müzakirələr aparmışıq”, – Bessent söyləyib.

Onun sözlərinə görə, qarşıdakı “həftələr və ya aylar” ABŞ-nin təzyiq kampaniyasında dönüş nöqtəsi ola bilər. Bessent əlavə edib ki, Vaşinqtonun məqsədlərinə çatması üçün İran iqtisadiyyatının tamamilə çökməsinə ehtiyac olmaya bilər.

Fransanın maliyyə naziri **Roland Leskür** toplantıda jurnalistlərə deyib ki, “hamımız bunun üzərində işləməliyik”.

**“ABŞ-nin sanksiyaları gücləndirməklə bağlı öz yanaşması var. Bu yöndə onlara kömək edib-etməyəcəyimizi müzakirə edəcəyik”,** – o vurğulayıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur